# Multikultural təlim və tərbiyə

**Şəlalə Rasim qızı Babayeva**
*Azərbaycan Dillər Universitetinin*
*Psixologiya kafedrasının dosenti*
**E-mail:** shela357@yahoo.com

**Rəyçilər:** psixol.ü.f.d., dos. N.T. Rzayeva,
psixol.ü.f.d., dos. M.C. İsmayılova

**Açar sözlər:** multikulturalizm, tolerantlıq, multikultural təhsil, multikultural tərbiyə, multikultural müəllim, multikultural cəmiyyət

**Ключевые слова:** мультикультурализм, толерантность, мультикультурное образование, мультикультурное воспитание, мультикультурный учитель, мультикультурное общество

**Key words:** multiculturalism, tolerance, multicultural education, multicultural education, multicultural nurture, multicultural society

Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olmuş, bu gün isə milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilmişdir. Azərbaycan xalqının zəngin multikultural keçmişi təkcə xalqımızın bugünkü tolerant yaşam tərzi ilə deyil, həm də yaratmış olduğu ədəbi-bədii, elmi-fəlsəfi, siyasi-hüquqi qaynaqlarda, sənədlərdə yaşayır. Dövlətimiz tərəfindən əsrlər boyu sülhlə harmoniya şəklində uzunmüddətli multietnik mədəni müxtəliflik qorunaraq saxlanılıb. Multikultural cəmiyyətimiz bizim əsas üstünlüklərimizdən biridir. Biz bunları dəyərləndirir və qoruyuruq. Tarix boyu müəllimlər cəmiyyətin dəyərlərinin gələcək nəsillərə ötürülməsində mənəvi körpü rolu oynamışdır. Xalqımız həmişə müəllim şəxsiyyətinə böyük hörmət və ehtiramla yanaşmışdır. Buna xalqın güzəran psixologiyasında yaranan bir çox atalar sözləri sübutdur. Məsələn, "Mənə bir hərf öyrədənin qırx il köləsi olaram [5, s.39]". Ümummilli lider Heydər Əliyevin müdrik siyasəti nəticəsində multikulturalizm Azərbaycanda mühüm prioritetlərdən birinə çevrilib.

Müəllim peşəsinə ən yüksək dəyəri ümum milli liderimiz Heydər Əliyev vermişdir. "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram". Xalqın dilində əzbər olan bu cür fikirlər müasir Azərbaycan müəlliminin üzərinə düşən məsuliyyəti daha da artırmışdır. Müasir Azərbaycan müəllimi öz şagirdlərinə yalnız təlim-tərbiyə vermir, o, eyni zamanda cəmiyyətə nümunə olacaq şəxsi keyfiyyətlərin daşıyıcısıdır. Hər bir müəllim həm öz mədəniyyətinin, həm də dünya mədəniyyətinin təmsilçisidir. Azərbaycan müəllimi öz multikultural dəyərləri ilə bir çox dünya ölkələrinə nümunə ola biləcək bir xalqın nümayəndəsidir. Azərbaycan cəmiyyətində multikultural dəyərlərin qorunmasında və onun gənc nəslə çatdırılmasında müəllimlərin rolu əvəzsizdir. Müasir Azərbaycan müəllimi multikulturalizmi özündə şəxsi keyfiyyəti kimi formalaşdırır, onu özününküləşdirir. O, dərk edir ki, istər ölkəmizdə, istərsə də dünyada sülhün, ədalətin bərqərar olması, sabitliyin və tolerantlığın inkişafı məhz cəmiyyətin multikulural dəyərlərə verdiyi əhəmiyyətdən asılıdır. Məhz multikulturalizim şəraitində insanlar arasında humanizm, etnoslararası dialoq, xalqlar arasında dostluq və qarşılıqlı əməkdaşlıq formalaşır.

Multikulturalizm dövlət siyasəti olmaqla yanaşı, müasir Azərbaycan cəmiyyətində dəyişməz həyat tərzi kimi təzahür edir. Hazırda dünyanın 13, Azərbaycanın 28 nüfuzlu ali təhsil ocağında Azərbaycan multikulturalizmi tədris edilir. Dünyada yüzlərlə xalq, millət, etnik qrup bir o qədər də etnomədəniyyət, mentalitet, həyat və davranış tərzi mövcuddur. Azərbaycan multikulturalizmi bir etalon kimi yalnız ölkə miqyasında deyil, beynəlxalq aləmdə də öz səmərəli nəticələri ilə insanlarda sülh, əmin-amanlıq, hörmət hissi yaradır. Hər bir müəllim bu reallığı dərk edib öz şagirdlərinə aşılamağı bacarmalıdır. Bu baxımdan multikultural Azərbaycan müəlliminin aşağıdakı vəzifələri ön plana çıxır:

— ayrı-ayrı mədəniyyətlərdən və etnik kimlikdən olan tələbə və şagirdlərin kimliyini anlamaq və onları qəbul etmək;

— öz şagirdlərində və tələbələrində fərqli etnik kimliklərə olan münasibətdə uzlaşan, tolerant və hörmətli olmaq bacarığı yaratmaq;

— etnik diskriminasiya, nifrət və zorakılıq kimi problemlərin həllində müəllim, valideyin və cəmiyyətin birgə fəaliyyətini uzlaşdırmağı bacarmaq;

— mədəni və etnik mühakimələrdən, sterotiplərdən uzaq gənc nəsil yetişdirmək;

— şagirdlərin etnik kimliklərini müəyyənləşdirməkdə kömək etmək.

Bu məqsədlə müəllimlər təlim prosesində multikultural dəyərlərin təbliği məqsədi ilə ictimai-humanitar fənlərdən səmərəli şəkildə istifadə etməlidirlər. Ədəbiyyat, tarix, ictimaiyyət, musiqi, təsviri incəsənət fənlərinin tədrisi prosesində istinad olunan ayrı-ayrı mövzular, sənət əsərləri xalqımızın multikultural dəyərlərini, onu qorumağın və təbliğ etməyin bir vətəndaşlıq borcu olması haqqında şagirdlərdə lazımı təsəvvür oyadır [6, s. 4].

Multikulturalizm ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və dinlərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmoniyasına, azsaylı xalqların dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldilmişdir. Multikulturalizm modeli dedikdə, bir dövlətin sərhədləri daxilində müxtəlif etnomədəni tərəflərin dinc yanaşı yaşaması və öz mədəni xüsusiyyətlərini, həyat tərzini rəsmən ifadə etmək və qoruyub saxlamaq hüququna malik olması nəzərdə tutulur. Multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri alətidir. Multikultural və tolerant dəyərlər ümumbəşəri xarakter daşıyır. Biz etnik-mədəni cəhətdən rəngarəng bir dünyada yaşayırıq. İrqi, dini, mədəni fərqliliklər əksər ölkələrdə mövcuddur. Təbii ki, bütün bunlar tarixi inkişafın nəticəsi kimi yaranıb. Özünəməxsusluqlar xalqların mədəniyyətlərini müəyyənləşdirir, dünyagörüşlərinin və fəaliyyətlərinin əsasını təşkil edir, insanların həyatında müsbət rol oynayır. Qarşılıqlı hörmət ruhu, fərqli mədəniyyətlərin dialoqu, ən yaxşı keyfiyyətlərin bir-birindən mümkün qədər görüb-götürməsi tərəqqinin təməli rolunda çıxış edir. Müasir dünyamızda indi çoxları bu həqiqətin fərqindədir. Əksəriyyət dərk edir ki, ümumbəşəri dəyərlərin qorunması və inkişafı dünyada yaşayan hər kəsin birgə missiyasıdır. Hamı bu birliyə bacardığı töhfəni verməlidir. Təbii ki, söylənilən məsələdə dövlətlərin, beynəlxalq qurumların, elmi-mədəni mərkəzlərin və s. üzərinə daha böyük vəzifələr düşür [2, s. 123].

Azərbaycanda multikulturalizmin dövlət siyasətində mühüm rol oynayır. Multikultural cəmiyyətin ölkəmizdə qədim dövrlərdən yarandığını qeyd edən tədqiqatçılar onun dövlətimizin milli-mənəvi və ümumbəşəri dəyərlərini əks etdirən ardıcıl bir siyasət olduğunu vurğulayıb. Ölkə Prezidenti İlham Əliyev multikulturalizmi həyat tərzi kimi qiymətləndirib və qeyd edib ki, bunun alternativi yoxdur. Bu baxımdan multikulturalizm hər zaman aktual olaraq qalacaq.

Müstəqillik əldə etmiş, öz xarici və daxili siyasətini öz milli mənafelərinə, ümumxalq mənafeyinə uyğun olaraq qurmaq imkanı qazanmış xalq, birinci növbədə öz dilinin, milli mədəniyyətinin, adət-ənənələrinin inkişaf etməsinə - özünə qayıtmasına çalışır. İlk növbədə, döv-

lətçiliyi möhkəmləndirmədən, xarici dövlətlərlə münasibətləri ümumbəşəri dəyərlər və beynəlxalq qaydalar əsasında nizamlayaraq dünya birliyinə bərabərhüquqlu üzv kimi daxil olmadan, yeni iqtisadi əlaqələrə keçmək yolunu müəyyən etmədən, hər şeydən öncə milli mədəniyyəti, dili və s. inkişaf etdirmək mövqeyi güclü tərəqqi üçün təməl ola bilməz. Özünü spesifik, fərqləndirici əlamətlərlə təsdiq etmək, özünü başqa millətlərə qarşı qoymaq və onlardan üstün olduğunu isbata yetirmək addımları ziyanlı nəticələrə gətirib çıxara bilər. Həm də başqa xalqların buna münasibəti, beynəlxalq siyasət mülahizələri baxımından deyil, yüksək dərəcədə daxili siyasətin ahəngdarlığı, insani dəyərlərin düzgün səviyyədə qiymətləndirilməsi və istifadə olunması baxımından millətçilik meyllərinin ön plana keçməsi yolverilməz bir haldır. Fərqli xüsusiyyətləri, milli cəhətləri də möhkəm bünövrə üzərində, ümumbəşəri dayaqlara bağlanaraq inkişaf etdirmək olar.

Azərbaycan çoxsaylı miqrant axınları qəbul edən ölkələrdən olmasa da, millətin formalaşmasının keçdiyi uzun tarixi yolda müxtəlif etnik, mədəni və dini qruplarla qarşılaşıb. Əlverişli coğrafi mühit, yerli insanların xoş davranışı bu qrupların bəzilərinin Azərbaycana üz tutmasına səbəb olub. Əhalinin ümumi sayında etnik və dini qrupların payının geniş olmasına baxmayaraq, Azərbaycan çoxsaylı etnik və dini qrupların yaşadığı multikultural ərazi hesab edilir [10, s. 47].

Multikultural cəmiyyətdə etnik, dini, irqi, mədəni müxtəlifliyi olan bütün qruplar öz hüquq və azadlıqlarını qoruyub saxlayaraq gələcək nəsillərə ötürə bilir. Ölkəmizdə multikultural dəyərlər qədim tarixə malikdir, hazırda bu ənənə uğurla davam etdirilir. Multikulturalizm – milli azlıqlar və ölkəyə yeni daxil olanlar tərəfindən dəstəklənən mədəni müxtəlifliyə münasibətdə fərqli reaksiyaların rəngarəngliyidir. Multikulturalizmin yuxarıda sadalanan spesifik cəhətləri onu son nəticədə cəmiyyətin inkişafına səbəb olan pozitiv təzahür, müsbət hadisə kimi xarakterizə edir. Multikultural cəmiyyətin formalaşması və inkişafı tarixi təkamülün xüsusiyyətləri ilə, konkret olaraq, sosial amillərlə müəyyənləşmişdir. Onu da qeyd edək ki, multikultural cəmiyyətin formalaşmasında və inkişafında demokratiya mühüm rol oynayır, daha dəqiq desək, demokratiya multikultural cəmiyyətin təkamülü üçün əlverişli şərait yaradır.

Multikulturalizm elə bir siyasətdir ki, o, mədəni plüralizmi qəbul edir və onun inkişafına şərait yaradır. Bu, ölkə əhalisinin etnik irqi və dini müxtəlifliyindən asılı olmayaraq, onların hamısının hüquq və azadlıqlarına hörmətlə əlaqədardır. Multikultural cəmiyyətdə hər bir vətəndaş öz mədəniyyətini, dilini, ənənəsini, etnik və dini dəyərlərini inkişaf etdirmək, ana dilində məktəb açmaq, qəzet və jurnal dərc etdirmək sahələrində bərabər hüquqlara malikdir. Multikultural cəmiyyət ilk növbədə, Qərbi Avropanın və Şimali Amerikanın demokratik ölkələrində mövcud olmuşdur. Həmin ölkələrdəki tolerantlığın, əxlaqi qaydalara uyğunluğun və demokratiyanın yüksək inkişaf səviyyəsi orada multikulturalizmin ideyalarının yayılması üçün münbit şərait yaratmışdır.

Azərbaycanın zəngin mədəni-mənəvi irsə və tolerantlıq ənənələrinə malik olması bu gün beynəlxalq aləmdə etiraf edilən həqiqətlərdəndir. Prezident İlham Əliyev multikultural cəmiyyət modelini yeni dəyərlərlə zənginləşdirir. 26 noyabr 2015-ci ildə Bakıda keçirilən İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) Baş Konfransının XII sessiyasında çıxış edən Prezident İlham Əliyev demişdir: “Biz tam əminik ki, multikulturalizmin gözəl gələcəyi var. Çünki multikulturalizmin alternativi yoxdur. Alternativ ayrı-seçkilikdir, diskriminasiyadır, islamofobiyadır, ksenofobiyadır. Bu, gələcəyə aparan yol sayıla bilməz. Ona görə, biz bu bölgədə öz siyasətimizlə və təşəbbüslərimizlə dinlərarası münasibətlərin gücləndirilməsi üçün çalışırıq və çalışacağıq [8, s.3]”.

Eyni zamanda, Heydər Əliyev Fondu tolerantlıq və multikulturalizm ənənələrinin davam

etdirilməsində çox böyük işlər görür. Fond bu istiqamətdə uğurlu layihələr həyata keçirir. Multikulturalizmi ölkəmizin sərhədlərindən kənarda təbliğ edir. Mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti onu çoxmillətli, çoxkonfessiyalı diyar kimi dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanı etmişdir. Azərbaycan Respublikasında bu gün həmin mədəni, linqvistik, etnik rəngarəngliyin qorunmasına yönəldilən və uğurla həyata keçirilən dövlət siyasəti multikulturalizm sahəsində əsrlərdən bəri toplanmış böyük tarixi təcrübənin xüsusi qayğı ilə əhatə olunmasını, zənginləşdirilməsini, cəmiyyətdə bu istiqamətdə qazanılmış unikal nailiyyətlərin beynəlxalq aləmdə təbliğinin gücləndirilməsini zəruri edir.

Multikulturalizm ingilis dilindən tərcümədə "çoxlu mədəniyyətlər" deməkdir. Multikulturalizm insanlar tərəfindən qavranılan dəyərlərdən ibarət bir sistemdir. Azərbaycanda multikultural cəmiyyətin yaradılmasında ailənin, təhsilin, tolerantlığın rolu böyükdür. Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir. Müasir dövrdə Azərbaycanda həyata keçirilən multikulturalizm siyasəti dövlətin tolerantlıq prinsiplərinə sadiq qalmasının bariz nümunəsidir. Beləliklə, multikulturalizm yalnız mədəniyyətlərarası dialoqun deyil, eyni zamanda qarşılıqlı əlaqələrin də böyük potensiala və geniş imkanlara malik olduğunu göstərir [9, s. 78].

Azərbaycanın zəngin mədəni-mənəvi irsə və tolerantlıq ənənələrinə malik olması bu gün beynəlxalq aləmdə etiraf edilən həqiqətlərdəndir. Dünyada yüzlərlə xalq, millət, etnik qrup bir o qədər də etnomədəniyyət, mentalitet, həyat və davranış tərzi mövcuddur. Azərbaycan multikulturalizmi bir etalon kimi yalnız ölkə miqyasında deyil, beynəlxalq aləmdə də öz səmərəli nəticələri ilə insanlarda sülh, əmin-amanlıq, hörmət hissi yaradır. Beləliklə, hər bir müəllim bu reallığı dərk edib öz şagirdlərinə aşılamağı bacarmalıdır.

**Məqalənin aktuallığı.** Multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olmuş və bu gün də milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilmişdir. Müasir dövrümüzdə cəmiyyətimizdə bu kimi ali dəyərlərə üstünlük verilməsilə yanaşı, onların təhsil müəssisələrində bir fənn kimi tədris olunması istər müəllim, istərsə də tələbələrin bu məsələyə daha ciddi yanaşmasını tələb edir. Məqalə də bu mövzuya həsr olunduğundan onu aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə multikulturalizm və tolerantlığın inkişaf etdiyi Azərbaycan cəmiyyətində müəlliminin qarşısında duran əsas vəzifələr sadalanır, multikulturalizmin dövlət siyasətində rolu açıqlanır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali, orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Abdulla K. Azərbaycan multikulturalizmi. Bakı, 2017.
2. Azərbaycan Milli Ensiklopediyası. "Azərbaycan" cildi. "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi. Bakı, 2007, 884 s.
3. Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqlar: I kitab. Bakı, 2016.
4. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2010.
5. Hacıyev A.N, Cəfərova E. H, Məmmədov İ.M. Multikulturalizmə giriş. Bakı, 2018.
6. Həsənov N. Azərbaycanın multikultural dəyərləri – örnək modeli. "Respublika" qəz., 2016, 21 fevral
7. Xəlilov S. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı, 2002.
8. İsmayılqızı X. Millətlərarası münasibətlərin formalaşmasında Azərbaycan təcrübəsi. "İki

sahil" qəz., 2016, 25 fevral
9. Multikulturalizm: meyillər və reallıqlar. Bakı, 2014.
10. Süleymanova E. Qloballaşan dünyada insan hüquqları. Qloballaşma və informasiya cəmiyyətinin problemləri (elmi məqalələr toplusu). Bakı, 2011.

**Ш.Р. Бабаева**

## Мультикультурное образование и воспитание

## Резюме

Мультикультурализм - это политика, которая поощряет культурный плюрализм и способствует его развитию. Есть сотни народов, национальностей, этнических групп по всему миру. Азербайджанский мультикультурализм, как эталон, создает мир, спокойствие и уважение к людям с их продуктивными результатами не только на национальном, но и на международном уровне. Таким образом, каждый учитель должен понимать эту реальность и применять ее к своим ученикам.

**Sh.R. Babayeva**

## Multicultural education and nurture

## Summary

Multiculturalism is a policy that promotes cultural pluralism and promotes its development. There are hundreds of peoples, nationalities, ethnic groups all over the world. Azerbaijani multiculturalism, as a benchmark, creates peace, tranquility and respect for people with their productive outcomes not only nationally but also internationally. Thus, every teacher must be able to understand this reality and apply it to his or her students.

**Redaksiyaya daxil olub:** 17.12.2019